
BÖYÜK
İQTİSADİ
ENSİKLOPEDİY
BÖYÜK İQTİSADİ ENSİKLOPEDİYA
2
BÖYÜK İQTİSADİ ENSİKLOPEDİYA
3
BÖYÜK İQTİSADİ ENSİKLOPEDİYA
4
BÖYÜK İQTİSADİ ENSİKLOPEDİYA
5

# "BÖYÜK İQTİSADİ ENSİKLOPEDİYA"

Azərbaycanda 5 cildlik "Böyük İqtisadi Ensiklopediya" nəfis şəkildə çap edilərək ictimaiyyətin ixtiyarına verildi. Azərbaycan Respublikası Milli Məclisinin İqtisadi Siyasət Komitəsinin sədri, Beynəlxalq İqtisadçılar İttifaqının vitse-prezidenti, Azərbaycan İqtisadçılar İttifaqının sədri, APFM Məsləhət Şurasının üzvü, akademik Ziyad Səmədzadənin ideya müəllifi və baş redaktoru, sözün geniş mənasında isə yaradıcısı olduğu, gərgin əməyin, işgüzar müzakirə və mülahizələrin məhsulu olan bu əsərin təqdimat mərasimi keçirildi və Assosiasiyamızın üzvləri də bu tədbirdə fəal iştirak etdilər.
APFM Məsləhət Şurası adından və jurnalımızım redaksiya heyəti adından akademik Ziyad Səmədzadəni "Böyük iqtisadi ensiklopediyanın" uğurlu təqdimat mərasimi ilə ürəkdən təbrik edir və ona öz dərin minnətdarlığımızı bildiririk! Əminik ki, ensiklopediya üzərində çəkdiyi əziyyət hələ bir neçə onillik bizim mütəxəssislərimizə, gənclərimizə, Azərbaycan iqtisadi elminin və ümumiyyətlə ölkəmizin iqtisadi inkişafına öz bəhrəsini verəcək.

Azərbaycanda ensiklopediya mədəniyyətinin öz tarixi var. Bu mühüm və dəyərli fəaliyyətin ən böyük yüksəliş çağları Ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndərin təşəbbüsü və dəstəyi ilə 1976-1987-ci illərdə çap edilmiş "Azərbaycan Sovet Ensiklopediyası" ölkə tarixinə bilik və məlumatların bütün sahələrini əhatə edən ilk fundamental əsər kimi daxil olub. Böyük elmi potensialın cəlb edilməsi ilə hazırlanan bu 10 cildlik ensiklopediyanın nəşri o dövrdə Azərbaycanın elmi və mədəni həyatında tarixi hadisəyə çevrilmişdi. Elmi-informativ zənginliyi, məzmun mükəmməlliyi baxımından bu sanballı nəşr indi də öz möhtəşəmliyini saxlayır. Azərbaycanın dövlət müstəqilliyinin bərpasından sonra dövrün tələblərinə cavab verən yeni ensiklopediyanın yaradılması zərurəti meydana çıxdı. Prezident İlham Əliyev dövlət əhəmiyyətli bu mühüm işin həyata keçirilməsini, ensiklopediyanın yüksək elmi səviyyədə hazırlanıb nəşri üçün tələb olunan maddi-texniki bazanın yaradılmasını təmin etmək məqsədilə "Azərbaycan Milli Ensiklopediyasının nəşri haqqında", "Azərbaycan Milli Ensiklopediyası Elmi Mərkəzinin yaradılması haqqında", həmçinin "Azərbaycan Milli Elmlər Akademiyasının "Azərbaycan Milli Ensiklopediyası" Elmi Mərkəzinin yeni binasının tikintisi ilə bağlı tədbirlər haqqında" sərəncamlar imzaladı. Yeni milli ensiklopediyanın hazırlanmasında azərbaycançılıq ideologiyası təməl prinsip kimi önə çəkildi, onun yeni dövrdəki tələblərə cavab verməsi, xalqımızın həyatındakı mühüm tarixi, ictimai-siyasi, elmi və mədəni hadisələri obyektiv şəkildə əks etdirməsi kimi mühüm vəzifələr müəyyənləşdirildi. Prezident İlham Əliyevin baş redaktorluğu ilə nəşr olunan Azərbaycanın Milli Ensiklopediyasının artıq ilk cildləri oxucuların istifadəsinə verilib.

Zamanın tələblərinə cavab olaraq akademik Ziyad Səmədzadənin ideya müəllifliyi və baş redaktorluğu ilə ilk dəfə irihəcmli fundamental "Böyük İqtisadi Ensiklopediya" hazırlanıb və nəşr edilərək oxucuların müzakirəsinə verilib. Olduqca böyük zəhmətin nəticəsi olan "Böyük İqtisadi Ensiklopediya"nı vərəqləyərkən burada

dünya iqtisadiyyatının tarixi, həyatın müxtəlif sahələrində istifadə edilən iqtisadi terminlərin mənası, görkəmli iqtisadçıların fəaliyyəti və digər mövzularda verilən məlumatlar zənginliyi, mahiyyəti ilə diqqət çəkir. 5 cilddən ibarət, 10 minə yaxın termin, iqtisadi anlayış və məqalənin toplandığı ensiklopediya çoxsaylı nəzəri, faktoloji material əsasında ictimai həyatdan gələn sualları cavablandırmaqla oxucuya çoxsaylı iqtisadi hadisələr, kateqoriyalar, modellərlə bağlı zəruri bilgilər verir. Ensiklopediya canlı dili, adekvat üslubu ilə oxucunu iqtisadi həyatın bütün sferalarında istifadə etmək üçün zəruri informasiya ilə təchiz edir. Azərbaycan Respublikası Prezidentinin "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" 18 iyun 2001-ci il tarixli fərmanının tələblərinə müvafiq olaraq ensiklopediyada dilimizə yeni daxil olmuş bir çox iqtisadi termin və anlayışların Azərbaycan dilinin qrammatik prinsiplərinə müvafiq istifadəsinə nail olunub. Bu da müasir iqtisadi terminologiyanın bundan sonrakı elmi-tədqiqat işlərində, qanunvericilik aktlarında istifadəsi zamanı mötəbər mənbə kimi haqqında söhbət açılan külliyyatdan istifadə ediləcəyinə şübhə yaratmır. Bu ensiklopedik külliyyat elmi-analitik çoxaspektliliyi, metodikliyi, leksik formatı, biblioqrafik və statistik informasiyalılığı, nəfis poliqrafik keyfiyyəti ilə də diqqəti çəkir. Yeni iqtisadi təfəkkürə köklənmiş bu irihəcmli nəşrdə müasir iqtisadi biliklərlə bağlı istənilən suala cavab tapmaq mümkündür.

Müstəqillik əldə etdikdən sonra respublikamızda konkret sahəyə aid ilk irihəcmli nəşr olan "Böyük İqtisadi Ensiklopediya"ya bənzər nəşrlərə keçmiş sovet məkanında bu formada, bu miqyasda rast gəlinmir. Bu da o deməkdir ki, ayrı-ayrı vətəndaşlar və ən müxtəlif sosial qruplar "dövlət bizə nə verib?" sualına cavab axtararaq fəaliyyətsiz dayanmaqdansa, "biz dövlətə nə verə bilərik?" sualı ətrafında fikirləşərək fəaliyyətə başlasalar olduqca əhəmiyyətli işlər ortaya qoya bilərlər.

Ensiklopediyanın digər özünəməxsus xüsusiyytəti bir sıra elmlərlə, o cümlədən riyaziyyat, tarix, sosiologiya, nanotexnologiya, sinergetika və s. ilə qarşılıqlı əlaqədə olan, bu elm sahələrində əldə edilən novatorçu ideyaların iqtisadi-sosial həyatda tətbiqi ilə iqtisadiyyat elmində baş verən ən son tərəqqiyə, elmi nəticələrə yer verməsidir. Çoxcildliyin səhifələrində 1968-ci ildən başlayaraq Nobel mükafatına layiq görülmüş məşhur iqtisadçıların bioqrafiyasına, onların irəli sürdüyü yeni təlim və konsepsiyaların təməl prinsiplərinə, son bir əsrdə nəzəri və praktik fəaliyyəti ilə Azərbaycana da təsir göstərmiş və ya təsir göstərməkdə olan iqtisadçılar barədə məlumatlara geniş yer verilib və bu dəyərli informasiyaların böyük əksəriyyəti ilk dəfə ana dilimizdə belə peşəkar səviyyədə nəşr edilib.

Müstəqillik illərində Azərbaycanın özünəməxsus inkişaf modelinin formalaşması ilə bağlı obyektiv qənaət isə qısa zamanda əldə olunmuş sosial-iqtisadi nailiyyətlərlə şərtlənir. Bütün bunlar gələcək nəsillərə də çatdırılmalı və izah edilməlidir. Bu baxımdan da "Böyük İqtisadi Ensiklopediya" mühüm əhəmiyyət daşıyır. Ensiklopediyanın daha bir əhəmiyyəti milli iqtisadiyyatın bugünkü yüksək səviyyəyə gəlib çatmasında müstəsna xidmətləri olan "Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı üzrə Dövlət Proqramı", "2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf üzrə Dövlət Proqramı", "2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı", "Azərbaycan Respublikasında nəqliyyat sisteminin inkişafına dair Dövlət Proqramı (2006-2015-ci illər)", "Azərbaycan Respublikasında 2009-2015-ci illərdə elmin inkişafı üzrə Milli Strategiya" və digər dövlət proqramlarının vəzifə və funksiyaları, onların ölkədəki inkişafa stimullaşdırıcı təsiri barədə əhatəli məlumatların verilməsindədir.

"Böyük İqtisadi Ensiklopediya" həm əhatəliliyinə və həcminə, həm də elmi-nəzəri və

praktik səviyyəsinə, eləcə də nəşriyyat-poliqrafik icrasına görə bütün digər bu kimi ensiklopediyalardan fərqlənir.
Hər şeydən əvvəl, ensiklopediyada XX əsrdə və yeni əsrin ilk illərində ayrı-ayrı ölkələrin iqtisadiyyatını xarakterizə edən çoxsaylı diaqram və cədvəllər, dünya iqtisadiyyatına təsir edən amillərin sistemli təhlili və ən başlıcası, Azərbaycan Respublikası müstəqilliyini bərpa etdikdən sonra ölkənin iqtisadi qüdrətinin möhkəmlənməsinə, qloballaşan dünya iqtisadiyyatına inteqrasiya olunmasına xidmət edən inkişaf strategiyası, azad bazar münasibətlərinin inkişafına və milli maraqlara cavab verən yeni iqtisadi sistemin formalaşmasının elmi-metodoloji əsasları, mahiyyəti barədə konkret fakt və dəlillərə əsaslanan tutarlı elmi mülahizələr əksini tapıb.
Ensiklopediyanın daha bir əhəmiyyəti onun müasir Azərbaycan və dünya münasibətləri kontekstində qiymətləndirilməsidir. Bu mənada ensiklopediyada ən universal iqtisadi anlayışlarla milli iqtisadi özünəməxsusluqlardan doğan kateqoriyaların vəhdəti düzgün verilib, Azərbaycan iqtisadi modelinin dünya iqtisadi modeli ilə uğurlu uyğunlaşdırılma strategiyası əsaslı təhlil olunub.




Tam məsuliyyətlə demək olar ki, ölkədə və xaricdə sayılıb-seçilən iqtisadçı alimlərdən olan akademik Ziyad Səmədzadə ağır işin öhdəsindən uğurla gəlib, bu ensiklopediyanın yaradılması ilə iqtisad elminə, xüsusilə də Azərbaycan elminə böyük töhfə verib. Bununla yanaşı, iqtisadiyyata dair nəzəri baxışları, ideyaları, modelləri, anlayışları, dünya və Azərbaycan iqtisadiyyatı barədə ətraflı təhlil və qiymətləndirmələri özündə əks etdirən bu nəşr təkcə Azərbaycan iqtisadi fikir tarixinin deyil, bütövlükdə ölkəmizin elmi-ictimai fikir tarixinin böyük uğurudur. Bu da Azərbaycanın ilk iqtisadi bestselleri kimi ensiklopediyanın kitab aləmində özünəməxsus yer tutacağına əminlik yaradır. Azərbaycan ictimaiyyətində artıq geniş elmi-ictimai əks-səda və maraq doğurmuş “Böyük İqtisadi Ensiklopediya” hamının rəğbətini qazanacaq, təkcə tələbələrin, magistrlərin, doktorantların, müəllim və mütəxəssislərin, sahibkar və investorların deyil, ümumən geniş oxucu auditoriyasının tələbatını tam, dolğun təmin edəcək. Heç şübhəsiz, bu nəşr Azərbaycan iqtisad elminin inkişafında yeni bir keyfiyyət mərhələsinə keçidin əsasını qoymaqla ölkə iqtisadiyyatının dinamik və keyfiyyətli tərəqqisinə öz layiqli töhfəsini verəcək.

# AZƏRBAYCANDA BEYNƏLXALQ BİZNES TƏDRİSİ ÜZRƏ İLK PEŞƏKAR MENECMENT DİPLOMLARININ TƏQDİMATI





23 aprel 2103-cü il tarixində APFM tədris mərkəzində Böyük Britaniyanın Açıq Universitetinin Biznes Məktəbinin “Professional Diploma in Management” proqramı üzrə tədris keçmiş ilk məzunlar diplomlarla təltif olundu. Tədbirdə Beynəlxalq Menecment İnstitutunun müəllim və inzibati heyəti iştirak edirdi.

Beynəlxalq Menecment İnstitutu- LİNK Beynəlxalq Tədris Şəbəkəsinin 90 regional mərkəzlərindən biridir. LİNK şəbəkəsinin funksiyası Böyük Britaniyanın Açıq Universitetinin Biznes Məktəbinin proqramlarının vahid tədris texnologiyalarına və standartlarına əsaslanır. Şəbəkənin koordinasiyası Beynəlxalq Menecment İnstitutu-LİNK tərəfindən həyata keçirilir, Böyük Britaniyanın Açıq Universitetinin Rusiyada və MDB ölkələrində eksklüziv partnyorudur. Hazırda LİNK-Rusiyada ən iri Biznes məktəblərindən biri kimi təkcə Açıq Universitetin proqramları üzrə 9 000 menecer hazırlayır.

LİNK – Rusiya Biznes Təhsili Assosiasiyasının, Avropa Distans Təhsili Assosiasiyasının, Sahibkarlar və Sənayeçilər İttifaqının, Rusiya Marketinq Assosiasiyasının üzvüdür.

Açıq Universitetinin Biznes Məktəbi AMBA, EFMD, CEL, AACSB kimi beynəlxalq akkreditasiyalara malikdir

"Professional Diploma  in Management"- Böyük Britaniyanın Açıq Universitetinin Biznes Məktəbinin təqdim etdiyi bilik və bacarıqların modernizasiyası proqramıdır. Açıq Universitet dünyada ilk müvəffəqiyyətli distans tədris universitetidir. Bu proqram ixtisaslı mütəxəssis tələb olunan idarəetmə (top menecment) sahələrində ( ümumi menecment, maliyyə menecmenti, informasiya, marketinq, personalın idarə olunması və s) menecerlərin kompleks və professional hazırlığı üçün nəzərdə tutulur. Tədris rus dilində Beynəlxalq Menecment İnstitutu-LİNK müəllimləri tərəfindən aparılır.

Peşəkar menecerlərimizi təbrik edirik!

---

Bu gün insan resursları təşkilatın əsas rəqabət üstünlüklərindən biri sayılır. Bir çox hallarda məhz öz idarəçilik bacarıqları ilə bu personal müəssisənin uğurunu müəyyənləşdirir. Bu təkcə bizim fikrimiz deyil. Təşkilatların uğur əmsalının qiymətləndirilməsi üzrə Avropa ekspertləri qeyd edir ki, iqtisadi qeyri-müəyyənlik şəraitində müəssisələrin inkişafı üçün əsas şərt - onun işçilərinin yeni bazar münasibətlərinə uyğunlaşması bacarığıdır. Dünyanın aparıcı təşkilatları



daim öz işçilərini sistemli praktik yönümlü biliklər əldə etməyə yönəldirlər. Təbii ki, təşkilat üçün tez və real praktik nəticə əldə edilə bilən tədris daha vacibdir və bu tədrisin nəticəsi təşkilatın effektiv və səmərəli fəaliyyətinə gətirib çıxarmalıdır. Böyük Britaniyanın Açıq Universitetinin "Professional Diploma in Management" diplomuna yiyələndiyim üçün və Azərbaycanda bu proqram üzrə ilk məzunlardan biri olduğum üçün çox sevinirəm və digər həmkarlarıma da tövsiyə edirəm. Burada öz vaxtına və maddi imkanına dəyər verən peşəkarların yüksək təhsili təmin olunur.Yalnız daimi ixtisas artırma yolu ilə qarşıya qoyulan məqsədə çatmaq və öz arzularımızı reallaşdırmaq mümkündür. Çünki effektiv tədris -kamilliyə doğru aparan yoldur.

***Nuriyyə Novruzova***
***APFM Prezidenti***
***İAB/İCFM Azərbaycanda nümayəndəsi***

---



"Professional Diploma in Management" proqramında istifadə olunan texnologiya-maksimal dərəcədə tədrisin aktiv formalarını, əyani qrup məşğələlərini (team-work), fərdi məşğuliyyətləri və internet(online) konfransları səmərəli şəkildə əlaqələndirir və müəllimi də bu prosesin aktiv bir üzvünə çevirir. Müəllimin (tyutor) əsas vəzifəsi – tədrisin ilk başlanğıcından tələbələrə əldə etdiyi bilik və bacarıqların praktik iş fəaliyyətlərində necə tətbiq olunmasına yardım etməkdir. Bu gün mənim üçün də çox sevincli bir gündür: tələbələrim tədrisin uğurlu nəticəsi kimi beynəlxalq statuslu diplomalara layiq görülüb, bir illik gərgin əməyimizin nəticəsi yüksək qiymətləndirilib. Mən bütün məzunları ürəkdən təbrik edirəm və gələcək peşəkar fəaliyyətlərində daha yüksək nailiyyətlər arzu edirəm!

Aleksandr Mixaylov
***Beynəlxalq Menecment İnstitutunun müəlllimi***

Tədris prosesində əldə etdiyim əsas bacarıqlardan biri kimi yaranan problemlərlin həlli üsullarının açıqlanmasını xüsusi qeyd edərdim. Problem-yönümlü yanaşma üzərində qurulan TMA-lar (yoxlama işləri), bizim hesabatlarımızın əsasını təşkil edirdi. Qrup məşğələləri isə çox aktiv idi, sanki problemin həll olunma prosesinə bütün personal cəlb olunmuşdu və məncə, bu, idarəetmədə ən yüksək nəticələrin əldə olunmasında mühüm amil hesab oluna bilər.
Bu gün əminliklə deyə bilərəm ki, qarşıma qoyduğum məqsədə çatmışam, menecment sahəsində lazımi praktik bilik və bacarıqlara yiyələnmişəm və bunu öz təcrübəmdə artıq tətbiq edirəm.

***Fərid Hacınski, tələbə***

